

## ƏLİ RZA XƏLƏFLİ

### UNUTMASIN... YAĞI HEY!..

*İsmayıl İmanzadəyə*

Ay İsmayıl, tanrı sənə yar olsun,
Yola saldıq pis dövranı, çağı hey!..
Sinəmizdə göynəm yeri qalsa da,
Yaxşı bitdi həsrətlərin dağı hey!..

Xatirələr ruhumuzu hördükcə,
Yaşayacaq yaddaşımız durduqca;
İstəyimiz fəxr edəcək gördükcə,
Arazüstə yaşıl vadi... bağı hey!..

Dərdimiz yox köç eləsək həyatdan,
Nəsillərə qürur qalar bu addan;
Yeriyərik təpər alıb inaddan,
Qarış-qarış bu Aranı, dağı hey!..

Üfüqlərdə ümidlərim söndükcə,
Qan ağladım həsrətlərə yendikcə;
Nə gizlədim zaman bizdən döndükcə,
Qaralmışdı gözlərimin ağı hey!..

Tarix hələ həsrətləri yetirir,
Təbriz dərdi, Araz dərdi bitirir;
Karvan-karvan yaddaş yükü gətirir,
Xudafərin körpüsünün tağı hey!..

Hünər, inad istəkləri yeridə,
Acı günlər tarix ola geridə;
Qarabağda halal zəhmət təri də,
Göyərdəcək uralanmış tağı hey!..

Xələflinin günü keçib getsə də,
Sözü qalar özü gözdən itsə də.
Unutmasın, aylar, illər ötsə də,
"Dəmir yumruq" zərbəsini yağı hey!

### ALLAHIN ƏMANƏT YOLU

*Vaqif Bəhmənliyə*

Oxudum şerini Vaqif Bəhmənli,
Hər misran pir daşı, ocaq daşıdır...
Xatirə yolların dumanlı, çənli
Gördüyün zirvələr dağlar başıdır...

Məmməd Araz yolu... anlamaq dərdi,
Əzablar içində yaşamaq yolu...
Allahın pay böldü, əmanət verdi,
Sənindi dərdləri daşımaq yolu...

İllərdir işığı qəlbindən keçən
Gözləri gözündür Eldar Baxışın...
Sözün ümmanında mənalar seçən
Sərraf nəzəridir iti baxışın...

Silsilə dağlardır adlar, ünvanlar
Yollar bələdçindir izlər sirdaşın...
Gördüyün pirlərdir qada sovanlar,
Kəramət gücü var burda hər daşın...

Gözlərin yaddaşın pəncərəsidir,
Baxıram gördüyün uca dağlara,
Xatirə ilğımı dərd çarəsidir,
Xəzan könlümüzdə solan bağlara...

Bizim qalaktika... adlar aləmi,
Yaşayan ürəklər ad -ad döyünər...
Sözünün üstünə çəkib qələmi,
Allahın özü də baxıb öyünər...

Yaxşı bilirəm ki sən çox ucasan,
Boyun boy götürüb Araz dağından...
Bilirəm dərdinlə dərdli qocasan,
Xallanan ömrünün ağrı çağından...

Ruhumuz dil tapar, qol boyun olar
Gedərik Vətəni istək boyunca,
Kövrək duyğularla könlümüz dolar,
Sevinər sözümüz yenə doyunca...

Xələfli sözünü yağdı bu yerdə,
Sözdə Vaqif olan bir kimsə görsün.
Xudafərin üstə ağlayan dərdə,
Diri qürurunda səcdəyə dursun...

Oxudum şeirini, Vaqif Bəhmənli,
Çatdığın ocaqlar oddan bəllənir...
İnsan təbiətlər çöllü, çəmənli,
İlhamın yağdıqca yaddaş güllənir...

*13.10.2021*

### SULTAN QƏZƏNFƏR KİMLİYİ

Axın axın sözlər gəlsə,
Bəndi Sultan Qəzənfərdi.
Xoş çöhrələr üzə gülsə,
Qəndi Sultan Qəzənfərdi.

Sözü ümid səhərinin
İşığıdır qəhərinin;
Elmin böyük şəhərinin
Kəndi Sultan Qəzənfərdi.

Hər addımı, hər ayağı,
İnam, inad yol dayağı;
Bax özünə türk sayağı,
Kəndi Sultan Qəzənfərdi.

Ustadların əhli beyti,
Şairlərin ziyarəti;
Tək misrası, qoşa beyti,
Bəndi Sultan Qəzənfərdi.

Xələflinin yaddaşı var,
Şeir, sənət şabaşı var;
Fikir, məntiq savaşı var,
Fəndi Sultan Qəzənfərdi.

### BİZ KİMLƏRİ SEVİRİK...

*Azərin şair Bəxtiyar Hidayət haqqında yazısına esse əlavə...*

Yazı alınıb... yazının alınmağı müəllifin mövzuya səmimi yanaşmasından asılıdır; sözün kimdən getdiyi və bu kimin kimliyi çox sərrast cizgilərlə verilib... Portret alınıbsa, demək, yazı da alınıb. Çünki rənglərin harmoniyası təmin olunub.

Suyu çox duru bulaqdan danışırsan...
Harda olmağının fərqi yox...
Yaxında bilirsən o bulağı...

Can atırsan o bulağa... əslində, yazının missiyası elə budur... Ancaq bir həqiqəti də deyim; bu gün Azərbaycanda sözü söz olanların çoxunda Azər ürəyinin genişliyi yoxdur, yoxdur, yoxdur... Oxuculara məlumat üçün deyirəm: Azər şairdir, yazıçıdır, həm də postmodern ədəbiyyatın nəzəri əsasları ilə məşğul olur. Əslində, riyaziyyat professorudur. Geniş mənəvi mühitində sərhədlərin üfüqləri hər hansı bir məhdudiyyətlə hüdudlanmır.

Biz bu genişliyin açlığını çəkirik.

Kimi təmənnaları sevər, kimi ideal paxıllığın əsiri olmağı xoşlar, kimi də dəm tutmağı...

Mən dünyanı, insanları sevənləri sevərəm, mən qəlbi genişləri sevərəm, mən könül oxşayan sözü özününkü bilib oxşayanları sevərəm. Çünki *"yaxşı olan hər şeyi sevmək yaxşıların işidir. Pislər yaxşıları sevməz. Yaxşılar buna da göz yumar" (Nübar Eldarqızı).*

Mən bulağının suyu duru olanları sevərəm. Bulağın qurumasın, Azər, suyu çox durudur. Suyu duru olan bulaqları qorumaq, bu, həm də hər kəsin işidir.

*16.12.2021*

### SÖZ KÖZLƏRİ...

*Çox Əziz dostum Qəşəm İsabəyliyə bir közlü məktub*

Böyük şair Qeşəm İsabəylinin **"Hamının dişi batır bizə"** şeirini *"Qələm dostum (təkcə qələmmi?!) Əli Rza Xələfliyə"* epiqrafı ilə oxudum. Qəşəm İsabəyli yazıb:

*"Hər görən başımıza qapaz salır,*
*Yolunu azmış kimi...*
*İran da yağmaladı sərvətlərimizi---*
*Çoxdankı arzusuydu ,*
*Erməni rus azmış kimi...*
*Bu boyda şapalaq dəyərmi*
*bir "afərin"ə ,*
*Xuda da kömək eləməz Xudafərinə?!*
*Cəbrayılın Xələflisi su altda qaldı,*
*Şair Əli Rza Xələfli sual altda...*
*İndən belə*
*"Xələfli " deyə biləcəkmi özünə?*
*Nə gələcək xəyalına,*
*Nə görünəcək gözünə?..*
*14 may 2020"*

Bəli, tarix də var. Demək, Qəşəm İsabəyli bu şeiri yazanda hələ müharibə yox idi... hələ savaş başlamamışdı.

Müharibə bitdi. Məlum oldu ki, maskaların altını, dağların o üzünü dərddaşım Qeshem İsabeyıi özünün şair fəhmi ilə olduğu kimi görürmüş. Bir sözlə, oxudum.

"Oxudum" sözü deyəsən burda gücsüz görünür. Ona görə də yazdım...

* * *

Əzizim, Qəşəm İsabəyli, ürəyimin başındakı közlü yara heç qaysaq da bağlamayıb. Amma bir səngiməm vardı.

Közərmiş misraları gözlərimlə ruhuma yığdım, yandıra-yandıra, ütülə-ütülə yığdım, ağzıma təpdim kəlmələri... təkrarlaya-təkrarlaya, dilim-ağzım pörşələndi.

Məni boğan göz yaşlarım köz yaşına dönüb yandırdı gözlərimi.

Bilmirəm bu boyda yanğı əvəzdirmi bir afərinə, daha dilim varmadı sözə. Elə çırpınan qəlbim səninlə yanan nəfəsimlə danışırdı...

Yaddaşım cızıldadı. Ağlı qaralı xatirələr elə bil qırmızı boyanmışdı...

Yaddaş gözlərimin qabağında ayaq tutub oynayırdı; bu, bir şəhid vayına öz içindən oynayan atanın oyunu idi.

Əzizim Qəşəm İsabəyli...

Ürəyinin ağrısı eyni yerdən göynəyən insanlar dost deyil...

Doğma ağrının şəriki qardaşlardı,
Şəhid Xələflinin taleyini yaşamaq.

Vətənin səsini yazıdan, sözdən də eşitmək var. Bir daha gördüm, duydum.

Bəlkə, ömürdən vəfa oldu, birgə gedərik Şəhid Xələflinin ocaq yerinə...

Xudafərinə birgə gedərik.

Qəddi zaman-zaman düzəlməyən tağları gözlərimizlə oxşayarıq.

Yurdun ağrısını yaddaşa qaytarmaq... şairliyin birinci şərti...

**Şeirin missiyası yandırmaq, yaralamaqdır. Necə ki, qanadlandırmaqdır.**

**Vətən, yurd deyilən nədirsə şairin ruhu ilə sözə dönüb danışanda insanlıq onu daha aydın qavrayır.**

Bu şeirdə səni gördüm, yurdu gördüm, ən başlıcası, özümü gördüm, öz yanğılarımı gördüm...

Deyəsən, söz elə belə olur... ilan balası kimi çabalayan, qıvrılıb açılan söz.

**P.S.** Bir iki kəlmə də...

Dostluğumuz barədə; hər gün gözümə girən, dostluq donu geyən, yaxud vaxtilə dost bildiyim çoxları var... qəlbimin dağlarına sakin ola bilmədilər...

Amma eləri də var ki, illərlə görməsəm belə, yaxud heç bir yaxınlığım olmasa belə, dostum olduğunu yəqin bilirəm.

Qəşəm İsabəyliyə inamımın tərəddüd zamanı çoxdan keçib...

Bəli, bu, mənəm, sənin Xələflin.

Yurd kimi gördüyün, daş, torpaq dadı verən: kənd kimi, körpü kimi qavradığın...

*23.12.2021*

### QUMRU ŞƏHRİYARA TƏSKİNLİK

Fuad Şəhriyar oğlu...
Ölümünlə göstərdin...
İnsan necə yanıb köz olar...
dünən mənim
Yaddaş yanğısı poemamı
oxuyub yazmışdı....
*...içdən gələn əsərdi...*
*çox kövrəldim...*
Xəbər isə məni sarsıtdı...
Sən həyatı yaşamırdın...
Sən həyatla savaşırdın...
Bu sənin həyatının sonu deyil...
Bu sənin həyatının əbədi qələbəsinin başlanğıcıdır...
Sən bizdən bəxtlisən...
Sən bizdən əvvəl uçdun Cəbrayıla...
Mərhum dostum Şəhriyar müəllim... Azərbaycanın böyük ziyalısı sənin gəlişini gördü...
Biz hələ yoldayıq...
Gəlib çatarıq sənə əziz Fuadımız...
Son bir ili tez tez zəng edirdi...
Elə bil çoxlu söhbətdən sonra
nəsə demək istəyirdi...
Amma hər dəfə sonraya saxlayırdı...
Mən Fuadın nə deyəcəyini
başa düşürdüm...
Sevdalısı olduğu
yurdu əmanətləyirdi...
Ruhun aram olsun, Fuad Şəhriyaroğlu.
Yaşamaqda yanmağın yönü
səninlə getdi...
Əbədiyyətdə görüşənədək...
Qumru Şəhriyar başda olmaqla
bütün əzizlərinə dözüm,
təmkin diləyirəm...
Qalanları Tanrı qorusun...

*23.12.2021.*

### XƏLƏFLİ SƏNİ GÖRÜR

*Əsəd Cahangirin 55 yaşına məktub*

Cahangirlik eşqinə düşən Əsəd Cahangir,
Bilirsənmi bu yolun küləklərdən keçəcək?
Özünü üyüdəcək bu dünya dəyirmanı,
Sözün də zaman-zaman ələklərdən keçəcək.

Uluların adına bağlanan qoca sözün,
Siqlətində, yükündə yaraşar taca sözün,
Qəlbinin atəşindən od alan uca sözün .
Sürünən cılızlardan, böcəklərdən keçəcək.

Sən "Nəhcül-Bəlağə"sən , soraqdı Əsəd adın,
İnadın, inamınla cahangirlik bünyadın.
İlahi güc eşqindən xəbər verən soyadın
Bükülməyən dizlərdən, biləklərdən keçəcək.

Yaşayarsan hikmətin Sədilik "Büstan"ında,
Ölməz sözün, sənətin əbədi dastanında;
Bitəcək hər bir sözün vətən gülüstanında,
Çöllərdən, çəmənlərdən, çiçəklərdən keçəcək.

Zamanın nəbzi vurur sözünün ahəngində,
Ziddiyyətlər, təzadlar hərəsi öz rəngində,
Xeyirlərin, şərlərin qanlı savaş cəngində,
Sənin adın, ünvanın diləklərdən keçəcək.

Əlli beş il avansdı ömründə, yaşında,
Vətənin öz ruhusan, torpağında, daşında.
Sənətin yaşayacaq tarixin yaddaşında,
Fikirdən, düşüncədən, ürəklərdən keçəcək.

Xələfli səni görür səma kitablarında,
Avesta, Dədə-Qorqud, Tövrat, İncil, Quranda.
Allahın hüzuruna yetişərsən son anda,
Yol üstə imtahanın mələklərdən keçəcək.

*09.09.2021*